*Azərbaycan kinosunun tarixi xalqımızın salnaməsidir.*

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**



**2 Avqust**
*Azərbaycan Kinosu Günüdür*

# Kino sahəsində ənənəni yaşatmalıyıq

**Azərbaycan tamaşaçısı bugünkü reallıqları əks etdirən filmlər gözləyir...**

**Azərbaycan kinosu milli mədəniyyətimizin və incəsənətimizin bir sahəsi, tariximizin bir qoludur. Ümumən Azərbaycan tarixində olduğu kimi, kino sahəsində də dəqiq araşdırılası səhifələr çoxdur...**

2000-ci il dekabrın18-də indiki Heydər Əliyev adına sarayda keçirilən IV Beynəlxalq "Şərq-Qərb" Bakı kino festivalının təntənəli açılış mərasimi bütün kino işçilərinin həyatında əlamətdar və unudulmaz hadisəyə çevrildi. Məhz həmin axşam ölkəmizin mədəni inkişafı sahəsində kinematoqrafçıların xidmətlərini və Bakıda çəkilmiş kinosüjetlərin 1898-ci il avqustun 2-də ilk kinoseansının həyata keçirildiyini nəzərə alaraq, 2 Avqust - Kino İşçilərinin Peşə Bayramı - Azərbaycan Kinosu Günü elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı Sərəncam oxundu. O gün kino işçilərinin sevincinin həddi-hüdudu yox idi...

Azərbaycan kinosu çoxmillətli sovet kino sənətinin bir çox görkəmli ustalarının iştirakı və köməkliyi sayəsində təşəkkül tapıb inkişaf etmişdir. Müxtəlif vaxtlarda Azərbaycanfilm kinostudiyasında Vsevolod Pudovkin, Qriqori Aleksandrov, Roman Karmen, Nikolay Şengelaya, İqor Savçenko, Boris Barnet kimi məşhur rejissorlar filmlər çəkib, məsləhətlər verib, köməklik göstəriblər. Bu görkəmli sənətkarlarla sıx əlaqə, onların böyük təcrübəsi və yüksək peşəkarlığı milli kadrların yetişməsinə, milli kinematoqrafçıların uğur qazanmasına vəsilə olmuşdur.

Milli kino sənətinin mövcud olduğu dövr ərzində Azərbaycan kino ustaları bir sıra parlaq filmlər yaratmışlar: "Kəndlilər", "Bakılılar", "Arşın mal alan", "Uzaq sahillərdə", "Şərikli çörək", "Axırıncı aşırım", "Yeddi oğul istərəm", "Nəsimi" və digər əsərlər mütəxəssislərin və mətbuatın yüksək qiymətini almış, bütün tamaşaçıların rəğbətini qazanmışdır. Ən yaxşı Azərbaycan filmləri ümumittifaq və beynəlxalq kinofestivallarda dəfələrlə mükafatlara layiq görülmüş, bir çox xarici ölkələrin ekranlarında nümayiş etdirilmişdir.

Bu illərdə respublikada sənədli kino da yaxşı inkişaf etmişdir. "Xəzər neftçiləri haqqında dastan", "Dənizi fəth edənlər", "Respublikam haqqında həqiqət", "Azərbaycan, Azərbaycan" və s. kimi filmlərdə Azərbaycan xalqının möhtəşəm əmək xarüqələri fəal və məqsədyönlü şəkildə əks etdirilirdi.

Ümummilli lider Heydər Əliyev istər yaradıcılıq təşkilatlarında sənət adamları ilə görüşləri zamanı, istərsə də mötəbər məclislərdə həm kino sənətini, həm də kino işçilərinin əməyini həmişə yüksək qiymətləndirmişdir. "Festivallar festivalı"nın açılışına həsr olunmuş təntənəli gecədəki çıxışında o, deyirdi: "Mən şadam ki, Azərbaycan kinosu mövcud olduğu dövr ərzində geniş inkişaf etmişdir. Bu gün siz Azərbaycan kinosu xronikasının tarixindən bəzi kadrları göstərəndə də, açığını desəm, mən bir daha və bir daha sevindim. Baxmayaraq ki, bunların hamısını görmüşəm, bütün bunlar mənə məlumdur. Elə vaxt gəlir ki, yenidən tarixlə təmasda olursan. Bu, şəxsən məndə çox böyük sevinc hissi, öz xalqım, öz respublikam üçün iftixar hissi doğurur...".

Bəli, Azərbaycan kinematoqrafçılarının hər bir tamaşaçıya zövq yaşadan filmləri çox olub. Məsələn, 1945-ci ildə çəkilmiş "Arşın mal alan" kinokomediyası nəinki Azərbaycan, həm də sovet kinosuna beynəlxalq şöhrət qazandırmışdır. Filmin istər quruluşu, istərsə də çəkilişi olduqca təbiidir. Komediya janrına məxsus incə yumor, hadisələrin bir-birinə bağlılığı, eyni vaxtda dörd toyun bir gündə edilməsi, ümumi şənlik, gözəl əhvali-ruhiyyə tamaşaçıda xoş ovqat yaradır. Filmin yaradıcı qrupu, 1946-cı ildə yüksək mükafata - SSRİ Dövlət Mükafatına layiq görülmüşdür.

Azərbaycan kinematoqrafçıları bəzən İttifaq səviyyəsində nümunə göstərə bilirdi. İkinci Dünya müharibəsindən sonra legionda faşistlərə qulluq edənlərin, yaxud düşmən arxasında qəhrəmanlıqlar göstərən insanların üzə çıxarılması əsas məqsəd kimi qoyulmuşdu. Ulu öndərin təşəbbüsü ilə 1956-1957-ci illərdə Mehdi Hüseynzadənin kimliyi üzə çıxarıldıqdan sonra məlum oldu ki, o, "Mixaylo" təxəllüsü ilə Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət Hərəkatında iştirak etmiş, məşhur partizan olmuşdur. Azərbaycan çekistləri nəhayət ki, istədiklərinə nail oldular. "Uzaq sahillərdə" filmi ekranlara buraxıldı və Sovet İttifaqında geniş rezonans yaratdı. Halbuki, İttifaq miqyasında bu səpgidə "Baharın on yeddi anı" və digər filmlər sonralar meydana gəlmişdi.

XX əsrin 60-cı illərinin ortalarında rejissor Ə.Atakişiyev yazıçı C.Əmirovun "Sahil əməliyyatı" povestinin motivləri əsasında "İstintaq davam edir" macəra filminin çəkilişlərinə başladı. Filmdə Vətənin təhlükəsizliyinin və şəhərimizin əhalisinin əmin-amanlığının qorunmasında Azərbaycan çekistlərinin və milisinin fəaliyyətindən, sıravi vətəndaşların sayıqlığından bəhs olunur. O vaxt Dövlət Təhlükəsizliyi Komitəsində sədr müavini işləyən Heydər Əliyev çəkilişlərin gedişatına özü rəhbərlik edirdi. Bu film də İttifaq miqyasında qəbul edilmişdi.

"Kinonu, kinematoqrafiyanı, kino sənətini yaşatmaq lazımdır". Heydər Əliyev bu fikirləri tez-tez təkrarlayır və onun inkişafı üçün əlindən gələni edirdi.

Kinomuzun inkişaf yolu daşlı-kəsəkli olmuşdur. Kinematoqrafçılarımız sənət naminə xeyli əzab-əziyyətlər çəkmişlər. Hələ 1942-ci ildə respublika rəhbərliyi Azərbaycanın istedadlı, tanınmış ədəbiyyat və incəsənət xadimlərini görkəmli ziyalılar haqqında yüksək bədii səviyyəli əsərlər yaratmağa çağırmışdı. Bu çağırışa cavab olaraq yazıçı Ə.Məmmədxanlı "Fətəli xan" bədii filminin ədəbi ssenarisini yazıb kinostudiyaya təhvil verir. Filmin çəkilişinə başlanılır. 1947-ci ildə filmin Azərbaycan variantı hazır olur, lakin mərkəz tərəfindən qəbul edilmir. Daha doğrusu, filmin "qayçılanaraq" rus variantında təqdimatına o zaman Azərbaycan SSR Kinematoqrafiya naziri olan Rəsul Rza razılıq verməfdiyindən ekranlara buraxılmır.

Bəli, sovet dövründə hər hansı bir film və ya başqa bir əsər senzuranın qoyduğu tələblər çərçivəsindən kənara çıxırdısa o filmə, ya əsərə qadağalar qoyulurdu. "Fətəli xan" filmi kimi. Ən yaxşı halda həmin filmdən dövlət üçün sərfəli olmayan epizodlar əvvəlcədən kəsilib atılırdı. Elə "Dəli Kür", "Axırıncı aşırım" bədii filmləri də bu taleyi yaşamışdı.

XX əsrin 90-cı illərinin əvvəllərində də Azərbaycanda təxminən bu hadisələrin təkrarını gördük. Qarşıda Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətini, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu dünyaya sübut etmək kimi məsələ dururdu. Və Azərbaycan kinematoqrafçıları da gözləmə mövqeyində dayanmadılar, bütün bu illər ərzində baş verən hadisələrə öz münasibətlərini ekran vasitəsilə bildirməyə çalışdılar. Onlar "Cavad xan", "Hökmdarın taleyi", "Dolu", "Qala" kimi filmlər yaratdılar. "Fətəli xan"da olduğu kimi, bu filmlər də Azərbaycanın real tarixi gerçəkliyini olduğu kimi ekranda təcəssüm etdirirdi.

Bu gün Azərbaycan yeni reallıqlar yaradıb, ərazi bütövlüyünü təmin edib, qalib ölkə, qalib xalq olaraq özünü dünyaya tanıdıb. İndi Azərbaycan tamaşaçısı bu gerçəklikləri əks etdirən filmlər gözləyir...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**